Zaur Ədalət oğlu Əsədzadə
Azərbaycan Kooperasiya Universiteti doktorant
Email: zaur.esedzade.1130@gmail.com
UOT: 33.336.338;63.64; JEL:A19;C40;D20;E20;L50.

Şərqi Zəngəzurda əlverişli aqrar biznes mühitinin formalaşdırılması istiqamətləri

Xülasə

Tədqiqatın əsas məqsədi Şərqi Zəngəzur iqtisadi rayonunda aqrar sahə üzrə əlverişli biznes mühitinin mövcudluq məsələləridir. Bunlardan başqa iqtisadi rayonun tərkibinə daxil olan hər bir inzibati rayonun aqrar potensialının araşdırılması tədqiqatın əsas məqsədlərindəndir. Tədqiqatın əsas metodologiyası - analiz, sintez, induksiya və deduksiya metodlarından ibarətdir. Tədqiqatın tətbiqi əhəmiyyəti iqtisadi rayonda aqrar potensialın tədqiq edilməsilə, potensial imkanlardan səmərəli istifadənin təmin edilməsidir. Tədqiqatın nəticəsi isə iqtisadi rayonun tərkibinə daxil olan hər bir rayonun aqrar potensialının üzə çıxarılması ilə, hansı rayonda hansı növ kənd təsərrüfatı mallarının istehsalının daha səmərəli olacağı təklifinin irəli sürülməsindən ibarətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi ondan ibarətdir ki, tədqiq edilən problem və bir çox faktlar ilk dəfə olaraq tədqiqat obyekti kimi seçilib. Tədqiqat zamanı yerli və xarici alimlərin yanaşmaları, əsərləri, statistik məlumatlar, müvafiq dövlət və özəl qurumların məlumatları nəzərdən keçirilib, müvafiq təhlil və ümumiləşdirmələr aparılıb.

Açar sözlər: *aqrar sektor, kənd təsərrüfatı, Azərbaycan iqtisadiyyatı, əlverişli rəqabət mühiti, Şərqi Zəngəzur iqtisadi rayonu, əlverişli biznes mühiti, rəqabətqabiliyyətli istehsal*

Giriş

Qlobal iqtisadiyyatda kənd təsərrüfatı məhsullarının istehsalının səmərəliliyi və inkişafı iqtisadiyyatın digər sahələrinin qarşılıqlı əlaqəli fəaliyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Bu əlaqələr ilk növbədə kənd təsərrüfatına müxtəlif növ texnika və kənd təsərrüfatı maşınları, yanacaq-sürtkü materialları, mineral gübrələr, tikinti materialları və sair avadanlıqlar satan sahələrin inkişafı ilə bağlıdır. Kənd təsərrüfatının inkişaf sürəti və dinamikası bu sahə üçün istehsal vasitələri istehsalının səviyyəsindən asılıdırsa, digər tərəfdən də kənd təsərrüfatına xidmət göstərən sahələrin səmərəli fəaliyyəti ilə bağlıdır. Başqa sözlə desək müasir kənd təsərrüfatı möhkəm maddi-texniki baza üzərində sənaye əsaslarında inkişaf edə bilər. Bütün bunlarla yanaşı kənd təsərrüfatında istehsal olunan sənaye mənşəli kənd təsərrüfatı xammalları yeyinti, yüngül və s. sənaye sahələrində emal olunaraq son məhsulun alınmasında mühüm rol oynayır. Kənd təsərrüfatı istehsalında ixtisaslaşmanın dərinləşməsi bu sahələr arasında qarşılıqlı əlaqələri daha da inkişaf etdirmişdir. Sənaye və kənd təsərrüfatı istehsalı bazasında bir-biri ilə ardıcıl şəkildə qarşılıqlı üzvi əlaqədə fəaliyyət göstərən və son məqsədləri uyğun gələn sahələrin mənafe birliyi aqrar sənaye kompleksi sisteminin yaranmasına şərait yaratmışdır. Aqrar-sənaye kompleksi sisteminə daxil olan istehsal strukturlarının fəaliyyəti, öz xarakter və xüsusiyyətlərinə görə fərqlənsələrdə, vahid məqsədə yönəldilmiş çoxsahəli funksional sistemlərdən ibarətdir. Bütövlükdə bu sistemin son məqsədi əhalinin ərzaq məhsullarına və kənd təsərrüfatı xammalından hazırlanmış kütləvi istehlak mallarına olan tələbatının daha dolğun ödənilməsinə yönəldilsədə, sistemə daxil olan hər bir struktur halqasının başlıca məqsədi mövcud əlaqə formasından daha səmərəli istifadə etməklə yüksək mənfəət əldə etməkdir. İstənilən ölkənin iqtisadi potensialının dərindən tədqiq edilməsi, həmin ölkədə əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması üçün ən başlıca şərtdir. Bundan başqa əlverişli biznes və rəqabət mühitinin formalaşdırılması üçün bu sahə üzrə qanunvericilik bazası prioritet əhəmiyyət daşıyır. Ölkədə hansı istiqamətlər üzrə potensial imkanlar varsa həmin sahələrin ətraflı və dərindən tədqiq edilməsi qeyd edilən

sahənin daha tez və daha səmərəli şəkildə intensiv inkişaf yoluna qədəm qoymasına zəmin yaradır. Şərqi Zəngəzur iqtisadi rayonunun tərkibinə daxil olan rayonların hər biri özünəməxsus potensial imkanlara malikdir. Hər bir rayonun füsnkar təbiətə malik olması və əlverişli coğrafi mövqedə yerləşməsi həmin ərazilərin istər turizm sahəsi üçün, istərsə də aqrar sahənin inkişafı üçün potensial imkanlara malik olmasından xəbər verir. Xüsusilə qeyd etmək lazımdır ki, aqrar sahənin səmərəli inkişafı bölgənin yerləşdiyi iqlim qurşağından, torpaq örtüyünün münbitliyindən və həmçinin həmin ərazidə məskunlaşmış əhalinin ixtisaslaşma səviyyəsindən aslıdır. Beləliklə hər bir ölkənin aqrar sahəsinin özünəməxsus xüsusiyyətləri vardır ki, həmin xüsusiyyətlər də regionun gələcək iqtisadi strategiyasının hazırlanması zamanı mütləq şəkildə nəzərə alınmalıdır.

Aqrar biznes mühitinə təsir edən amillər

Məlumdur ki, ölkədə əlverişli biznes mühitinin yaradılması həm regionun investorlar üçün cəlbediciliyi baxımından, həm də dolayısıyla iqtisadiyyatın dayanıqlı inkişafı baxımından prioritet əhəmiyyət daşıyır. Bu baxımdan aqrar biznes mühitinə təsir edən mühüm amillər sxem 1-də göstərilmişdir.

Sxem 1.

Aqrar biznes mühitinə təsir edən amillər



İlk öncə onu vurğulamaq lazımdır ki, yuxarıda göstərilən hər bir faktor bir-birləri ilə birbaşa və ya dolayısıyla qarşılıqlı əlaqədədirlər. Smart faktoru dedikdə təsərrüfat subyektinin fəaliyyəti zamanı istifadə etdiyi hər hansı bir texnoloji yenilik nəzərdə tutulur. Hansı ki, bu texnoloji avadanlıqlar vasitəsilə istehsalı ekstensiv inkişafdan intensiv inkişafa inteqrasiya etmək olar. Smart faktorun biznes mühitində tam təchiz edilməsi üçün iqtisadi amilin əhəmiyyəti danılmazdır, lakin bundan da önəmli həmin texnologiyanı idarə edəcək potensial kadrların təsərrüfat subyektində fəaliyyətini təmin etməkdir, çünki müəssisə nə qədər texnoloji avadanlıqlarla təchiz edilsə də, yekunda həmin avadanlığı işə başladan insandır. Bu baxımdan müəssisələr texnoloji bazalarını yeniləməklə yanaşı paralel olaraq kadr potensialının təlim və müxtəlif metodikalar vasitəsilə dövrün tələblərinə uyğun formalaşdırılmalarını təmin etməlidirlər [9]. Aqrar biznes mühitinə təsir edən digər mühüm faktor isə coğrafi və ya ətraf mühit faktorudur. Havanın rütubətlilik göstəricilərindən tutmuş regionun dağlıq və ya düzənlik ərazidə yerləşməsi, iqlim mühitinin kontinentallıq dərəcəsi və sair amillər bu faktorun tərkib hissələrindəndir. Hüquqi faktor dedikdə ölkənin aqrar sahə ilə bağlı tətbiq etdiyi qanunverici baza nəzərdə tutulur. Aqrar sektorda tətbiq edilən vergi güzəştləri, aqrar kreditlərin verilməsi və aqrar sığorta mexanizminin sadələşdirilməsi və sair amillər qanunvericilik əsasında formalaşdığı üçün qeyd edilənlər aqrar biznes mühitinə təsir edən hüquqi faktorlar kimi nəzərdə tutulur. Sadalanan bütün faktorların demək olar ən

başlıcası olan iqtisadi faktor bütün biznes subyektlərinin səmərəli fəaliyyətinin zəruri tələblərindəndir. Dövlətin iqtisadi dayanıqlılığı elə səviyyədə olmalıdır ki, biznes sahələrinə kifayət qədər subsidiya ayıra bilsin. Vergi güzəştlərinin tətbiq olunması, kreditlərin daha aşağı faizlə verilməsi və digər məsələlər dolayısı ilə dövlətin iqtisadi gücü ilə əlaqədardır[8]. Bu baxımdan iqtisadi faktorun kifayət qədər güclü olmaması digər faktorların fəaliyyətinə öz neqativ təsirini göstərir. Kadr faktoru isə biznes mühitinin inkişafında mühüm paya sahib olan ikinci göstəricidir desək yanılmarıq. Az öncə vurğuladığımız kimi istər texnoloji göstəricilər, istərsə də iqtisadi göstəricilər nə qədər ürəkaçan olursa olsun yekunda hər işin başlanğıcında insan kapitalı dayanır. Bu baxımdan biznes idarəçiləri müəssisədə fəaliyyət göstərən insan kapitalının səmərəli fəaliyyətinə töhfə vermək üçün fasiləsiz çalışmalıdırlar. Əlavə olaraq iqtisadi ədəbiyyatlarda göstərilən 3R prinsipinin bu istiqamətdə tətbiq edilməsi daha səmərəli nəticələrin əldə olunması üçün mühüm əhəmiyyət kəsb edir. 3R prinsipi (right person, right position, right time) ingilis dilində müəyyən sözlərin abreviaturasından ibarət olmaqla, düzgün insanın düzgün mövqeyə düzgün zamanda yerləşdirilməsini özündə ehtiva edir [4]. Yuxarıda qeyd edilən faktorların bir-birləri ilə qarşılıqlı fəaliyyətinin təmin edilməsi nəinki aqrar sektorda, iqtisadiyyatın istənilən sahəsində məqsədəmüvafiq nəticələrin əldə edilməsində öz əvəzsiz töhfəsini verəcəkdir.

Şərqi Zəngəzurun inkişafında aqrar sektorun rolu

İşğaldan azad edilən Şərqi Zəngəzur iqtisadi rayonunun tərkibinə daxil olan rayonların hər birinin aqrar sektor üzrə kifayət qədər potensiala malik olması hər kəsə məlumdur. Əlverişli iqlim və münbit torpaq örtüyü həmin regionu kənd təsərrüfatının inkişafı üçün cəlbedici edir. Əfsuslar olsun ki, Qarabağın 30 il işğal altında olması həmin ərazilərdə kənd təsərrüfatı potensialından yararlanmağımıza əngəl olmuşdur. Həmin illər ərzində əhlinin artan tendensiyada hərəkətini nəzərə alsaq deməli insanların ərzaq məhsullarına olan tələbatı da əhaliyə müvafiq olaraq artmışdır. Lakin kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatlar nəticəsində əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi istiqamətində mühüm işlər həyata keçirilmişdir. Nəticə etibarilə hal-hazırda Azərbaycanda əhalinin kənd təsərrüfatı məhsullları ilə təmin olunmasında yerli istehsal müəssisələri əhəmiyyətli paya sahibdirlər. Şərqi Zəngəzurun, ümumilikdə Qarabağın işğaldan azad edilməsindən sonra bu proses daha çox təşəkkül tapmışdır. Xüsusilə vurğulamaq lazımdır ki, işğaldan öncə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tərkibinə daxil olan hər bir rayonda aqrar sektorda fəaliyyət göstərən istehsal subyektləri görmək olardı. Bu da o deməkdir ki, işğaldan öncə də əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əvəzsiz xidmətləri olmuşdur [1]. Bunlardan əlavə olaraq qeyd etmək lazımdır ki, aqrar sahənin səmərəli inkişaf etdirilməsi üçün ərazinin bol sulu və münbit torpaqlara sahib olması zərurdir. Şərqi Zəngəzur iqtisadi rayonunda da təbii otlaq sahələrinin, biçənəklərin və o cümlədən əkinçiliyin əsası olan münbit torpaqların üstünlük təşkil etməsilə yanaşı təbii su höfzələrinin çoxluğu və sair amillər iqtisadi rayonda aqrar sektorun potensial inkişafını şərtləndirir. Bütün bu qeyd edilənlər onu deməyə əsas verir ki, Şərqi Zəngəzur iqtisadi rayonu aqar sektorun inkişafı üçün zəngin potensial imkanlara malikdir.

Aqrar sektorun səmərəli inkişafının təmin edilməsi üçün regionların müxtəlif növ məhsullar üzərindən ixtisaslaşmalarına müvafiq olaraq bölgüsü zəruridir. Qeyd etmək lazımdır ki, Şərqi Zəngəzur iqtisadi rayonun tərkibinə daxil olan hər bir rayonda ya maldarlıq, ya arıçılıq, ya balıqçılıq, ya da əkinçilik və sair aqrar sahənin tərkibinə daxil olan sahələr üzrə kifayət qədər münbit şərait mövcuddur. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının dərc etdiyi məlumatlara əsasən iqtisadi rayonun tərkibinə daxil olan rayonlardan Cəbrayıl

rayonunun mövcud torpaq sahələrinin 45%-i əkinə yararlı torpaq sahələrindən ibarətdir. Həmin göstəricilər Qubadlı və Zəngilan rayonları üzrə 35%, Laçın və Kəlbəcər rayonlarında isə 10% təşkil edir [14]. Qeyd edilən rayonlardan əkinə yararlı torpaq sahələri üzrə göstəriciləri aşağı olan rayonlarda isə maldarlığın inkişafı üçün münbit şərait mövcuddur. Xüsusilə qeyd etmək lazımdır ki, Kəlbəcər və Laçın rayonları dağlıq ərazi olduğundan həmin ərazilərdə əkinə yararlı torpaq sahələrinin digər rayonlara nisbətən azlıq təşkil etməsi təbii haldır, lakin təbii otlaq sahələrinin mövcudluğu həmin sahələrdə heyvandarlığın inkişafını şərtləndirir. Kəlbəcər və Laçın rayonlarının əksinə Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarında digər rayonlara nisbətən düzənlik ərazilərin çoxluq təşkil etməsilə yanaşı əkinə yararlı torpaqların mövcudluğu həmin əraziləri kənd təsərrüfatı məhsullarının istehsalı üçün cəlbedici edir. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatlarına əsasən Azərbaycanda 2019-2021-ci illər üzrə kənd təsərrüfatı məhsullarının ixracı cədvəli aşağıdakı kimi təsvir edilmişdir.

Cədvəl 1.

Azərbaycanın ixrac etdiyi kənd təsərrüfatı malları (ton)

	2019	2020	2021
Arpa	16120,7	2720,08	36358,6
Buğda	19180,1	2520,04	34620,3
Kartof	61785,13	81388,34	92343,49
Soğan	26155,51	17203,27	26155,51
Yağ	203,98	207,34	458,28
Süd	34,5	85.3	194,8
Pendir	608,64	1224,69	1514,86

Mənbə: FAO-nun məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldə qeyd edilən məlumatlar Azərbaycanda 2019-2021-ci illər aralığında ixrac edilən kənd təsərrüfatı malları içərisindən ən çox paya sahib olan məhsulların statistik göstəriciləridir. Məlumatlara nəzər yetirsək görərik ki, 2021-ci ildə arpa ixracı 2019-cu ilə nəzərən 2 dəfədən çox olaraq 36358.6 ton təşkil etmişdir. Yerli buğdanın xarici bazara çıxarılması baxımından da eyni sözləri deyə bilərik. Belə ki, buğda ixracı 2021-ci il üzrə ötən illərə nəzərən 2 dəfəyə yaxın artım göstərmişdir. Ağartı məhsullarından süd və pendirin göstəricilərinə gəldikdə isə bu məhsulların ixrac üzrə artım tempi digər kənd təsərrüfatı mallarına nisbətən daha yüksəkdir. Belə ki, pendir ixracı 2019-cu il 608.64 ton olduğu təqdridə, bu rəqəm 2021-ci il üzrə 1514.86 ton olaraq təqribən 3 dəfəyə yaxın artım göstərmişdir. Süd ixracı isə 2021-ci ildə ötən illərə nəzərən 6 dəfəyə yaxın artaraq 194.8 ton olmuşdur. Əldə olunan statistik göstəricilər onu deməyə əsas verir ki, Qarabağın, xüsusilə Şərqi Zəngəzur iqtisadi rayonunun işğaldan azad edilməsinin ardınca həmin ərazilərdə sürətli şəkildə reinteqrasiya prosesinə başlanılması Azərbaycanın ərzaq təhlükəsizliyi sahəsində özünü təmin etməklə yanaşı, nəzərəçarpacaq dərəcədə məhsul ixrac etməsinə səbəb olmuşdur. Regionun potensial imkanları qeyd edilən rəqəmlərdən dəfələrlə çoxdur. Aqrar sahədə potensial imkanların səmərəli istifadəsi üçün işğaldan azad edilən bütün ərazilərin mina və partlamamış sürsatlardan təmizlənməsi zəruridir. Bu baxımdan da dövlət davamlı və düşünülmüş strategiya həyata keçirir. Qeyd edilənlərlə yanaşı göstəricilərin artan tendensiyada davam etməsinə səbəb kənd təsərrüfatı sahəsində baş verən davamlı islahatlardır. Kənd təsərrüfatı sahəsində uğurla həyata keçirilən islahatların nəticəsi kimi kənd təsərrüfatı mallarının istehsalı üçün zəruri olan texniki avadanlıqların, maşın və nəqliyyat vasitələrinin və sair idxalı zamanı gömrük rüsumundan azad edilmələri ilə yanaşı bu qəbildən

olan kreditlərin daha aşağı faizlə daha uzunmüddətə sahibkarlara əlçatanlığının təmin edilməsini göstərmək olar [1].

Qarabağın işğaldan azad edilməsindən sonra görülən işlər aqrar sektorda qarşıya qoyulmuş məsələlərin mərhələli şəkildə həll edildiyini deməyə əsas verir. Buna təminat verən ən vacib faktor isə azad edilən bütün rayonlarda yeni kəndlərin və yaşayış məntəqələrinin istifadəyə verilməsi, insanların doğma yerlərinə qayıdaraq ənənəvi təsərrüfat sahələri üzrə fəaliyyətə başlamalarıdır. Bu məqsədlə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə böyük ənənələrə malik olan Türkiyə, İsrail, Niderland və sair digər dost və tərəfdaş ölkələrin təcrübələri də müvəffəqiyyətlə öyrənilərək tətbiq edilir. Ümumiyyətlə isə ölkədə kənd təsərrüfatına dövlət dəstəyinin artırılması, "Aqrar Sığorta Mexanizmi"-nin tətbiqi, aqrar sahənin inkişafına müsbət təsirini göstərir. Aqrar sığorta mexanizminin tətbiqindən öncə, aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektləri öz təsərrüfatlarını səmərəli inkişaf etdirə bilmir, böyütməyə o qədər də cəhd etmirdilər. Bütün bunlara səbəb gələcək risklərdən qorunmalarına və ya baş verə biləcək hər hansı bir təbiət hadisəsi zamanı onlara dəymiş ziyanın kompensasiyasının təmini üçün hüquqi normanın olmaması idi, lakin qeyd edilən sığorta mexanizminin istifadəyə verilməsi bu sahədə fəaliyyət göstərən sahibkarlara güvən aşılamaqla öz təsərrüfatlarını rahatlıqla inkişaf etdirmələrinə, böyütmələrinə zəmin yaradır. Təkcə onu xatırladaq ki, 2022-ci il üzrə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcmi 3,4 faiz artıb. Artım dinamikası 2023-cü ilin ilk 9 ayında da qorunub saxlanılıb və bu il ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artım qeydə alınıb. Bir sözlə dünyada ərzaq təhlükəsiz-liyinin bir nömrəli problemə çevrildiyi indiki mərhələdə Azərbaycanın bütün bölgələrində olduğu kimi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da aqrar sektorun dirçəldilməsi aktual məsələ kimi qarşıda durur [2].

Dövlətin kənd təsərrüfatı sahəsində həyata keçirdiyi mühüm proqramlar şübhəsiz aqrar sektorun sürətli inkişafına kömək edir. Bu da öz növbəsində həm ixrac imkanlarını artırır, həm də ərzaq təhlükəsizliyinin təminində əhəmiyyətli rol oynayır. Sadalanan bütün faktorlar aqrar sahədə əlverişli biznes mühitinin formalaşdırılmasına dövlət dəstəyinə bariz nümunədir. Bunlardan başqa Laçın rayonunda Aqro və Sənaye parkı, Cəbrayıl rayonunda Araz Vadisi İqtisadi Zonası, Zəngilanda Dost Aqroparkı və Kəlbəcər rayonunda qoyunçuluq, arıçılıq təsərrüfratlarının yaradılması ilə yanaşı digər tədbirlər bölgədə kənd təsərrüfatının inkişafına heç şübhəsizki ciddi təsir göstərəcək. Şərqi Zəngəzur iqtisadi rayonunun işğaldan sonrakı vəziyyətinin tədqiq edilməsindən sonra iqtisadi rayona daxil olan hər bir rayonun aqrar sektor üzrə potensialı aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 2.

Şərqi Zəngəzur iqtisadi rayonunun aqrar potensialı

	r a y o n l a r				
	Kəlbəcər	**Laçın**	**Cəbrayıl**	**Qubadlı**	**Zəngilan**
Heyvandarlıq	+	+	+	-	+
Kartofçuluq	+	-	-	-	-
Meyvəçilik	+	+	-	-	-
Tərəvəzçilik	+	+	-	-	-
Baramaçılıq	-	-	+	+	+
Bağçılıq	-	+	-	-	-
Taxılçılıq	-	+	-	+	+
Üzümçülük	-	-	+	+	+
Arıçılıq	-	-	-	+	+
Tütünçülük	-	-	-	-	+

Mənbə: Cədvəl müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 2-dəki məlumatlar onu deməyə əsas verir ki, Kəlbəcər rayonunda heyvandarlıq, kartofçuluq, meyvəçilik və tərəvəzçilik, Laçın rayonunda isə heyvandarlıq, tərəvəzçilik və bağçılığın səmərəli inkişafı üçün potensial imkanlar mövcuddur. İqtisadi rayona daxil olan digər 3 rayonun hər birində üzümçülük, baramaçılıq və heyvandarlıq sahələri üçün əlverişli mühit olmaqla yanaşı, Qubadlı rayonunda taxılçılıq və arıçılıq, Zəngilan rayonunda isə taxılçılıq, tütünçülük və arıçılıq sahələri üzrə kifayət qədər potensial var. Qeyd edilən bu məlumatlar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilməsindən sonra əldə edilən tədqiqat nəticələridir. Onu da qeyd etmək lazmdır ki, sadalanan potensial imkanların səmərəli istifadəsi ciddi düşünülmüş, kompleks tədbirlər planı hazırlanmaqla həyata keçirilməlidir. Kompleks tədbirlər dedikdə ərazilərin mina və digər partlamamış sürsatlardan təmizlənməsi və yerli əhalinin öz dədə-baba torpaqlarına geri dönməsini təmin etmək nəzərdə tutulur. İşğaldan öncəki dövrün məlumatlarına nəzər yetirsək onu görərik ki, Şərqi Zəngəzur iqtisadi rayonu başda olmaqla Qarabağın istənilən bölgəsində məskunlaşmış əhalinin mütləq əksəriyyətinin peşə fəaliyyəti kənd təsərrüfatı sektroru ilə ya birbaşa ya da dolayısı ilə əlaqələnirdi. Bu isə o deməkdir ki, regionda məskunlaşan əhali ya kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olmuş və ya istehsalın bir sonrakı mərhələsi olan emal müəssisələrində fəaliyyət göstərmişdirlər.

Qeyd edilənlərdən bu nəticəyə gəlmək olur ki, dövlətin kənd təsərrüfatı sahəsinin inkişafı üçün atdığı mühüm addımlar, heç şübhəsiz aqrar sahənin sürətli inkişafını şərtləndirir. Bu da öz növbəsində ixrac imkanlarını artırmaqla ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır. Ümumiyyətlə qlobal səviyyədə baş verən hadisələr dövlətlər arası münasibətlərdə üzə çıxan yeni tendensiyalar ərzaq təhlükəsizliyini ən aktual məsələ kimi qarşıya qoyur [10]. Bu səbəblə də hökumət 2023-cü ilin sonuna qədər aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkşaf etdirilməsi üçün büdcədən 1,2 milyard manat məbləğində vəsait ayırmağı nəzərdə tutur. Hədəflər sırasında azad olunmuş ərazilərdə yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi vəzifəsi də yer alır. Xüsusilə, qeyd etmək lazımdır ki, ənənəvi idxal-ixrac əlaqələrində Ukrayna hadisələrindən sonra baş verən dəyişikliklər əvvəllər xaricdən idxal edilən ərzaq mallarının bundan sonra daxili imkanlar hesabına tədarükünü strateji məsələyə çevirməkdədir. Bu məqsədlə dövlət, sahibkarlığın təşviqi, fermer təsərrüfatlarının inkişafı, kənd təsərrüfatı subyektlərinə subsidiyaların ayrılması və o cümlədən son zamanlar xeyli populyarlıq qazanan aqrar sığorta mexanizminin tətbiqi istiqamətində prinsipial addımlar atır. 2023-cü ildə büdcədən sırf ərzaq təhlükəsizliyi tədbirləri üçün 655,2 milyon manat vəsaitin ayrılması məhz həmin məsələlərə xidmət üçün hədəflənmişdir. Əgər aqrar sektorun işğaldan azad edilmiş bölgələrdəki inkişaf strategiyasına nəzər salsaq qeyd etmək olar ki, dövlət başçısının tapşırıqları əsasında bu il üçün dövlət büdcəsindən 4,3 milyard manat əlavə maliyyə vəsaiti ayrılacaq. Həmin vəsaitin 2 milyard manatlıq hissəsi azad olunmuş ərazilərdə yenidənqurma işlərinə sərf olunacaq ki, bu da nəhayətdə əhalinin öz dədə-baba torpaqlarına geri dönməsi ilə ənənəvi kənd təsərrüfatı sahələri ilə məşğul olmalarını təmin edəcək. Bunlaran başqa cari ildə "Böyük Qayıdış Proqramı" üçün ayrılan vəsaitin həcmi 5 milyard manata yüksəldiləcək. Beləliklə əlavə maliyyə vəsaiti həm qayıdış həm də quruculuq işlərinin sürətləndirilməsini şərtləndirəcək. Rəsmi məlumatlara görə 2026-cı ilin sonuna kimi 34 min 500 ailə işğaldan azad olunmuş ərazilərə köçürüləcək [15]. Əhalinin doğma yurd-yuvalarında daimi məskunlaşması sözsüz ki, onların kənd təsərrüfatı sahələrində məşğulluğunun təmin edilməsilə, ölkə iqtisadiyyatına öz töhfəsini verəcəkdir.

Nəticə

Tədqiqatlar onu göstərir ki Şərqi Zəngəzur iqtisadi rayonu aqrar sektor üzrə böyük iqtisadi potensiala malikdir. Sadalanan potensial imkanların səmərəli istifadə edilməsi işğaldan azad edilən ərazilərin mina və partlamamış silah-sürsatlardan tez bir zamanda təmizlənməsini və regionda irimiqyaslı bərpa, yenidənqurma işlərinin həyata keçirilməsini zəruri edir. Bu baxımdan nəyinki Şərqi Zəngəzur iqtisadi rayonu, bütövlükdə Qarabağın hər bir rayonunda yuxarıda sadalanan işlər, quruculuq işləri həyata keçirilir. Qeyd edilənləri nəzərə alaraq onu da əlavə etmək mütləqdir ki, aqrar sektorun inkişaf etdirilməsi və potensial imkanlarının səmərəli istifadəsi üçün yerli əhalinin öz dədə-baba torpaqlarına geri dönməsi zərurət təşkil edir. Qarabağın işğaldan azad edilməsindən sonra həyata keçirilən kompleks tədbirlər nəticəsində bir qrup əhali 30 ildir ayrı düşdükləri doğma torpaqlarına geri dönmüş və bu da öz növbəsində həmin ərazilərin kənd təsərrüfatı potensialının səmərəli istifadəsilə intensiv inkişafına, dolayısıyla ölkədəki aqrar mühitin optimallaşmasına təkan vermişdir. Aqrar sahənin potensial imkanlarından səmərəli şəkildə istifadə etmək üçün bölgədə nəqliyyat sektorunun inkişafı da mühüm əhəmiyyət kəsb edir. İstehsal edilən hər bir məhsulun keyfiyyətinin dəyişmədən istehlakçıya və ya emal müəssisəsinə çatdırılması səmərəli istifadənin başlıca şərtlərindəndir. Bu baxımdan regionda yaradılan hava limanları və o cümlədən yeni yol-nəqliyyat infrastrukturu bu nöqteyi-nəzərdən aqrar sektor ilə yanaşı digər sahələrin potensial imkanlarından səmərəli şəkildə yararlanmağımıza zəmin yaradacaqdır.

Ədəbiyyat

1. İqtisadi İslahatlar jurnalı, 2022, №4(5), səh 63-94.
2. İpək yolu jurnalı, 2018, №2, s.20-35.
3. Nəbiyev R. “Azərbaycan Respublikasının Qarabağda resursların səmərəli bölgüsünə istiqamətləndirilmiş struktur siyasəti”. “İqtisadi islahatlar” elmi-analitik jurnal, № 1(2).
4. Cheng, S.G.; Pu, Y.S.; Zhu, D.Q. Research on the endogenous dynamics of high-quality agricultural development: Based on the perspective of the interaction between technological progress, institutional changes and economic performance. Soft Sci. 2020.
5. Feenstra RC, Taylor AM. International trade 4th edition. New York: Macmillan Learning; 2017.
6. Grinciuc L, Bujor T (2017) The impact of the small business in the agricultural sector in order to enhance competitiveness. Scientific Papers Series Management, Economic Engineering in Agriculture and Rural Development, 17(1):321-234.
7. Gryshova Y, Shestakovska L, Glushko V. (2017) The economic measurement of convergence of institutional impact on the sustainability of development. Scientific Papers of the Legislation Institute of the Verkhovna Rada of Ukraine 4:75-80.
8. Popp J, Sroka W, Oláh J. Financial development and foreign direct investment-the moderating role of quality institutions. Sustainability, 2020.
9. Saiz-Rubio, V.; Rovira-Más, F. From smart farming towards agriculture 5.0: A review on crop data management. Agronomy 2020.
10. Wen Q, Wang Y, Zhang H, Li Z. Research on the improvement of agricultural products to its own competitiveness in the international trade by agricultural economic management. Boletin Tecnico/Technical Bulletin, 2017.
11. https://www.fao.org/faostat/en/#home.
12. https://azranking.az/.
13. https://azerbaijan-news.az/az/posts/detail/qarabag-ve-serqi-zengezurun-aqrar-potensiali-olke-iqtisadiyyatina-elave-imkanlar-yaradir-1668458800.
14. https://ikisahil.az/post/337183-sherqi-zengezur-ve-qarabagda-kend-teserrufatinin-inkishafi-en-muasir-esaslar-uzerinde-qurulmalidir.
15. https://science.gov.az/az/news/open/16136.

Zaur Adalat Asadzade

The formation directions of favorable agrarian business environment in East Zangezur

Summary

The main purpose of the research is the availability of a favorable business environment in the agricultural sector in the East Zangezur economic district. Apart from these, the assessment of the agricultural potential of each region included in the economic region is one of the main goals of the research. The main research methodology consists of economic methods - analysis, synthesis, induction and deduction methods. The applied importance of the research is that by studying the agricultural potential in the economic region, it is ensuring the effective use of potential opportunities. The result of the research is to reveal the agricultural potential of each region included in the economic region, and to put forward the proposal that the production of which type of agricultural goods will be more efficient in which region. The originality and scientific novelty of the research, the investigated problem and many facts were included in the scientific circulation for the first time. During the research, the approaches and works of local and foreign scientists were reviewed, relevant analyzes and generalizations were made.

Keywords*: agrarian sector, agriculture, economy of Azerbaijan, favorable competitive environment, East Zangezur economic region, favorable business environment, competitive production*

Заур Адалят оглы Асадзаде

Направления формирования благоприятная аграрная бизнес-среда в Восточном Зангезуре

Резюме

Основная цель исследования – наличие благоприятной деловой среды в аграрном секторе Восточно-Зангезурского экономического района. Помимо этого, одной из основных целей исследования является оценка сельскохозяйственного потенциала каждого региона, входящего в экономический район. Основная методология исследования состоит из экономических методов – анализа, синтеза, методов индукции и дедукции. Прикладное значение исследования заключается в том, что, изучая аграрный потенциал экономического региона, обеспечивается эффективное использование потенциальных возможностей. Результатом исследования является раскрытие сельскохозяйственного потенциала каждого региона, входящего в экономический район, и выдвижение предложений о том, в каком регионе производство какого вида сельскохозяйственной продукции будет более эффективным. Оригинальность и научная новизна исследования, исследуемая проблема и многие факты были включены в научный оборот впервые. В ходе исследования были рассмотрены подходы и работы отечественных и зарубежных ученых, сделаны соответствующие анализы и обобщения.

Ключевые слова*: аграрный сектор, сельское хозяйство, экономика Азербайджана, благоприятная конкурентная среда, Восточный Зангезурский экономический район, благоприятная бизнес-среда, конкурентоспособное производство.*

Elmi redaktor: i.e.d. Y.Məmmədov
Daxil olub: 29.11.2023.
Çapa qəbul olunub: 08.12.2023.